**Müşviq MUSTAFAYEV**
Qərbi Kaspi Universiteti,
Psixologiya və Sosial iş kafedrasının dosenti
E-mail mustafayev@mail.ru

**Nihad AXUNDOV**
Qərbi Kaspi Universiteti,
Psixologiya və Sosial iş kafedrasının magistrantı
E-mail nihadakhundov13@gmail.com

# CİNAYİ DAVRANIŞIN FORMALAŞMASINDA SOSİAL MÜHİTİN ROLU

**Xülasə**

Məqalə cinayi davranışın formalaşmasında sosial mühitin roluna həsr edilmişdir.Sosial mühit amili şəxsiyyətin formalaşmasına o cümlədən,cinayətkar şəxsiyyətin formalaşmasında mühüm rol oynayır.Sağlam sosial mühitdə inkişaf etməyən şəxsin davranışları cinayi davranışa meyl edərək, nəticədə cinayətkar şəxsiyyətə çevrilir.Hər hansısa bir cinayət hadisəsin psixoloji təhlili zamanı mütləq cinayətkara təsir edən sosial mühit amillərin nəzərdən keçirməliyik.Bu həm cinayətkarın psixoloji profilini yaratmağa,həm də cinayi davranışın psixoloji mexanizmlərini öyrənməyə kömək edir.Məqalədə bu məsələlər geniş və hərtərəfli şəkildə şərh olunmuşdur. Bütün bunlarla yanaşı,mövcud ədəbiyyat sistemləşdirilərək təhlil edilmişdir.

**Açar sözlər:**Sosial mühit,cinayətkar,cinayi davranış,hüquqazidd,psixoloji

**UOT:** 159.9
**DOİ:** https://doi.org/ 10.54414/ HRDE7155

## Giriş

Cəmiyyətdə surətlə gedən proseslər və dünyada baş verən dəyişikliklər insanları ətraf mühitlə adekvat qarşılıqlı əlaqə qurmaq üçün uyğunlaşmağa məcbur edir. Bu baxımdan sosial mühit şəxsiyyətin formalaşmasına təsir edən mühüm komponentlərdən biri hesab olunur.İnsan bir şəxsiyyət kimi cəmiyyətlə qarşılıqlı əlaqədə formalaşır, inkişaf edir və özünü aktuallaşdırır. İnsanın davranış normaları, əxlaq normaları, inancları sosial mühitdə formalaşır. Sosial mühit sadəcə insanın davranışına təsir edən şərait deyil,həm də onu yaradan və dəyişdirən insan fəaliyyətinin nəticəsidir. Sosial mühit şəxsiyyətin formalaşmasında,cəmiyyətin norma və dəyərlərinin mənimsənilməsini təmin edir. Həmçinin sosial mühit ailə, dost, məktəb və media vasitəsilə sosial rolların, şəxsiyyət və davranış nümunələrinin formalaşmasında əsas rol oynayır. O, həm müsbət təsir, həm də mənfi təsir göstərə bilər. Düzgün sosial mühitdə formalaşan şəxs yüksək mənəvi keyfiyyətlərə malik olur və cəmiyyətin normalarına uyğun şəxsiyyətə çevrilə bilər. Lakin düzgün sosial mühitdə formlaşmayan "mən" in inkişafında müəyyən pozuntular, antisosial və asosial davranış nümunələri, həmçinin qapalı xarakter xüsusiyyətlərinin formalaşması müşahidə oluna bilər.

## Əsas Hissə

Şəxsiyyətin düzgün istiqamətdə inkişafı üçün sağlam sosial mühit önəmlidir.Yuxarıda qeyd etdiyim kimi, sağlam sosial mühitdə inkişaf etməyən şəxsin davranışları mənfi istiqamətdə formalaşır. Buda öz növbəsində cinayətkar şəxsiyyətin formalaşmasına zəmin yaradır.

Cinayətkarın şəxsiyyəti anlayışının məzmun və mahiyyətini açmaq üçün ilk növbədə, onun formalaşmasını, onun təzahürlərini şərtləndirən daxili psixoloji və xarici sosial və sosial-psixo-

loji amilləri aşkar etmək, həmin amillərin təsirinin və həmin təsiri alanın reaksiyasının, yəni onları dərk etmək, qiymətləndirmək səviyyəsini müəyyənləşdirmək zərurəti meydana çıxır [2,s.341]. "Cinayətkar şəxsiyyət" ifadəsinin işlədilməsi o deməkdir ki, söhbət cinayət törətmiş şəxsin "sosial siması"ndan gedir. Kriminoloji tədqiqatlar göstərir ki, şəxsiyyətin sosial mühitlə qarşılıqlı əlaqəsinin təhlili vacibdir, çünki cinayət davranışı şəxsiyyətin və ya ətraf mühitin özü tərəfindən deyil, onların qarşılıqlı təsiri nəticəsində yaranır.Şəxsiyyətin inkişafı və formalaşmasında uğursuz sosiallaşma kifayət qədər güclü sosial məhdudiyyətlərə,cinayi niyyətin yaranmasına və daxili nəzarətin itirilməsinə səbəb olur.Cinayi niyyət cinayi davranışdan əvvəl, düşüncə prosesində yaranır. Onun formalaşmasına ictimai və hüquqi şüura uyğun gəlməyən anlayış və ideyalar təsir edir.

Hüquqazidd davranış hansı səviyyədə təzahür edirsə-etsin, bütün hallarda onun özünəməxsus psixoloji xüsusiyyətləri vardır [4,s.329]. Cinayətin ilk növbədə sosial cəhətdən öyrənilməsi, cinayi davranışa təsir edən fərdi psixoloji xüsusiyyətləri nəzərə almamaq demək deyil. Fərdi psixoloji xüsusiyyətlərdən tutmuş, deviant və ya asosial davranışların təbiətinə qədər şəxsiyyətin müxtəlif aspektləri A. N. Leontyev, B. F. Lomov, S. L. Rubinşteyn, K. K. Platonov və başqa alimlər tərəfindən geniş miqyaslı və ətraflı araşdırılmışdır.

A.N. Leontyev insanın fəaliyyətinin onun şəxsiyyətini formalaşdırdığını və bu fəaliyyətin sosial mühitlə sıx əlaqəli olduğunu bildirir. Onun fikrincə, insanın sosial mühitdəki fəaliyyəti onun şəxsiyyətinin inkişafında əsas rol oynayır[6].

S.L. Rubinstein şəxsiyyətin yalnız fərdi xüsusiyyətlərdən ibarət olmadığını, həm də sosial mühitin təsiri altında formalaşdığını qeyd edir. O, şəxsiyyətin inkişafının sosial mühitlə qarşılıqlı əlaqədə olduğunu vurğulayır[9].

K. K. Platonov sosial psixologiyanın şəxsiyyətin formalaşmasında necə təsirli olduğunu araşdırır. Onun fikrincə, sosial mühitin şəxsiyyətin inkişafına təsiri sosial əlaqələrin və qarşılıqlı təsirlərin gücünə bağlıdır[8].

B. F. Lomov şəxsiyyətin sosial psixologiyasını araşdıraraq, sosial mühitin insanın davranışlarına və şəxsiyyətinə necə təsir etdiyini izah edir. O, sosial mühitin şəxsiyyətin inkişafında və davranışlarının formalaşmasında mühüm rol oynadığını vurğulayır[7].

Yuxarıda da qeyd olunduğu kimi, sosial şəraitlə cinayi davranışı arasındakı əlaqə mürəkkəbdir və sosial şərait həmişə şəxsiyyət vasitəsilə dolayı yolla cinayətdə təzahür edir. Uzunmüddət davam edən soial qarşılıqlı əlaqələr (məktəb,ailə, dost) insanın şəxsiyyətində müəyyən izlər buraxır. Bu təsir nəticəsində insanın təkcə bir cinayət əməlini deyil, bir neçə cinayəti əhatə edən və ümumilikdə qeyri-qanuni davranış meyllərini əks etdirən sabit bir oriyentasiya formalaşır. Belə şəxsiyyət dəyişən sosial mühitdə belə, əgər öz keyfiyyətlərini dəyişməyibsə, cinayət törətməyə, lazım gəldikdə mühiti özünə uyğunlaşdırmağa və qarşıya çıxan maneələri dəf etməyə qadirdir.Qeyd etmək lazımdır ki, cinayət davranışı ilə adekvat davranış arasındakı fərq dəyərlər, baxışlar və sosial münasibətlər sistemində, yəni şüurun substantiv tərəfində köklənir. Şəxsin zəruri fiziki və əqli imkanlarını tələb edən bəzi xüsusi cinayət əməlləri var ki,bu zaman cinayətlər yalnız insanların xarici xüsusiyyətlərini nəzərə alaraq qiymətləndirilə bilməz. Ümumiyyətlə,cinayi davranışın bilavasitə səbəblərini şəxsiyyətin və sosial mühitin dəyər-normativ sistemində, onların qarşılıqlı əlaqəsində axtarmaq lazımdır. Əlbəttə, burada söhbət arzulanan əxlaqi-hüquqi ideallardan və hərəkətlərdən deyil, cəmiyyət tərəfindən qəbul edilmiş dəyər və normalardan gedir. Bunu da qeyd etməliyəm ki, cəmiyyət və fərdin dəyərlər sistemi yalnız sosial qarşılıqlı əlaqənin başlanğıcı kimi deyil, həm də sonrakı qarşılıqlı əlaqəyə təsir edən nəticəsi kimi qəbul edilir.Yəni şəxsiyyətin dəyərlər sistemi sosial mühitdəki münasibətləri formalaşdırır və eyni zamanda bu münasibətlər şəxsiyyətin dəyərlər sisteminə təsir göstərir.

Cinayi davranışın həyata keçirilməsinə kömək edən və onun vəziyyətini müəyyən edən saysız-hesabsız hadisələr,amillər və şərtlər var. Bu amillərin məcmusunu 2 qrupa bölmək olar: daxili və xarici.

Daxili amillər əsasən şəxsiyyətin şəxsi və fərdi-psixoloji xüsusiyyətlərindən asılıdır.Daxili amillər əsasən insanın iradəsi,xarakteri,psixikasının xüsusiyyətləri və ya sinir sisteminin quruluşu ilə əlaqəlidir.

Əsas daxili amillər:

*Psixoloji xüsusiyyətlər*-aqressivlik,impulsivlik,stresse dözümsüzlük,emosional sabitliyin olmaması cinayi davranışa səbəb ola bilən daxili amillər hesab olunur.

*Xarakter keyfiyyətləri*- mənəvi və əxlaqi keyfiyyətlərin zəif olması, vicdan hissinin aşağı olması və bu kimi digər keyfiyyətlər cinayi davranışa səbəb ola bilən daxili amillər sırasındadır.

*Psixi vəziyyət və sağlamlıq*- bəzi psixi pozuntular,xəstəliklər,davranış pozuntuları şəxsin cinayət törətmə ehtimalını artırır. Bura psixoz halında törədilmiş cinayətləri misal göstərə bilərəm.

*Vərdişlər*- pis vərdişlər qanuna zidd hərəkət törətmə ehtimalın artırır. Statistikalara əsasən, alkoqol və narkotik istifadəçilərinin törətdiyi cinayi davranışlar kifayət qədər çoxdur.

Xarici amillər fərdin iradəsindən çox az asılıdır və ya ümumiyyətlə asılı deyil. Xarici amillər əsasən şəxsin yaşadığı və formalaşdığı sosial mühitlə, qurduğu münasibətlərlə və cəmiyyətlə əlaqəlidir.

Əsas xarici amillər:

*Ailə mühiti*- ailə insanın ilk sosializasiyasının baş verdiyi mikromühitdir.İlkin uşaqlıq dövründən valideynlərin tərbiyə modelləri, davranış nümunələri, sevgi,qayğı və diqqət səviyyələri şəxsiyətin formalaşmasına böyük təsir göstərir. Ailədaxili zorakılıq,davalar, düzgün tərbiyə və davranış modellərinin qurulmaması, ailə üzvlərinin bir-biri ilə sərt və kobud rəftarı və bu kimi digər hallar şəxsiyyətin formlaşmasına mənfi təsirlər göstərir. Natamam ailə faktoru cinayi davranışa təsir edən xarici amillərdəndir.

Ailədaxili psixi və ya fiziki zorakılığa məruz qalan uşaqlar gələcəkdə cinayi davranışa meylli olurlar. Əgər ailədə narkotik və ya alkaqol istifadəçisi varsa, bu ailədə böyüyən uşağında narkotik və ya alkaqol aludəçisi olma ehtimalı yüksəkdir.

Ted Bundy-ni nümunə olaraq göstərə bilərəm. Ted Bundy, 1970-ci illərdə ABŞ-da bir çox qadın öldürmüş məşhur qatildir. Bundy-nin uşaqlıq dövrü problemli ailə mühitində keçmişdir.Valideynləri Bundy-nin şəxsiyyətinin formlaşmasına mənfi təsir göstərmişdir.Bundy ailə münasibətlərində diqqətsizlik və soyuqluğa məruz qalmışdırş Bütün bu hallar Bundy-nin cinayətkar şəxsiyyət kimi formlaşmasına böyük təsir göstərmişdir[16].

*Sosial və ictimai mühit*-şəxsin dost çevrəsi,yaşadığı məhəllə mühiti cinayi davranışa təsir edən xarici amillərdən hesab olunur. Kriminal davranışların geniş yayıldığı mühitdə doğulan və ya böyüyən uşaqlarda cinayi və hüquqazidd davranışlar müşahidə olunur. Dünyanın bir çox ölkəsində bu kimi küçələr,yaşayış yerləri mövcuddur.

Yüksək cinayət səviyyəsi olan məhəllələrdə gənclər oğurluq və quldurluğa meyl göstərirlər.Tez-tez yeniyetmələr arasında dostlarının təsiri altına düşərək cinayət törətdikləri müşahidə olunur.

“London gəncləri”(Street gang) 2000-ci illərdə Londonda bir qrup gənc bir sıra quldurluq və zorakılıq halları törədirdilər.Bu qrup yüksək kriminal səviyyəsi olan məhəllərdə böyümüş həmyaşıdlardan ibarət olur[13].

*Təhsil və məktəb mühiti*-Məktəb yalnız təlim-tədris mühiti deyil, həmdə sosiallaşma prosesində böyük rol oynayır.Çünki hər bir uşaq ailədən sonra məktəb mühitində sosializasiya prosesinə daxil olur.Uşaq məktəbdə mənfi təsirlərə məruz qalarsa cinayi davranış törətmə ehtimalı artır.

Məktəbdə uğursuzluq və ya müəllim təzyiqinə məruz qalan uşaqlarda vandalizm,oğurluq və ya yalan danışma kimi hallar müşahidə olunur, buda onların cinayi davranışa meyl etməsinə səbəb olur.

Eric Harris və Dylan Klebold 1999-cu ildə ABŞ-ın Kolorado ştatında yerləşən və özlərinində təhsil aldığı Columbine orta məktəbinə silahlı hücum edərək 12 şagird və 1 müəllimi öldürmüş,20-dən çox insanı isə yaralamışlar. Bu cinayi davranışın səbəbini araşdırdıqda, bu iki gəncin məktəbdə müəllimlərlə konfliktlər yaşadıqları,akademik uğursuzluq və həmyaşıdları tərəfindən psixi və fiziki zorakılığa məruz qaldıqları məlum olmuşdur[12].

*İqtisadi və maddi amillər*-yoxsulluq,işsizlik və maddi çətinlik insanların həyat fəaliyyətini çətinləşdirir. Bu hal insanların cinayi davranışa meyl etməsini gücləndirir.

İnsanların maddi ehtiyaclarını ödəmək üçün tez-tez oğurluq və ya dələduzluq etdikləri məlumdur. Həmçinin dünyanın bir çox yerində

gənclər işsizlik faktoruna görə narkotik ticarəti və ya dələduzluq fəaliyyətinə yönəlir.

Al Capone 1920-1930-cu illərdə qanunsuz spirt satışı və quldurluq fəaliyyəti ilə məşğul olan məşhur cinayətkardır. Böyük iqtisadi böhran,yoxsulluq və sosial bərabərsizlik Capone-nin cinayətkarlığa başlamasına şərait yaratmışdır. Al Capone maddi ehtiyaclarını ödəmək üçün cinayətkarlıqla məşğul olmağa başladı,lakin qısa zaman məşhur cinayətkara çevrildi[11].

*İnternet vasitələri və sosial media amili*-kütləvi internet vasitəsiləri və sosial media insanların xüsusəndə gənclər və yeniyetmələrin davranışlarına böyük təsir edir. Zorakı oyunlar,filmlər,videolar və ya mediada olan cinayətkarlıq nümunələrinin tez-tez nümayiş olunması gənclərdə bu davranışın "normal" olduğu düşüncəsini yaradır.

Video oyunlarda zorakılığa alışmış yeniyetmənin davranışlarında da zorakılıq müşahidə olunur. Sosial mediada daha geniş kütlə tərəfindən tanınmaq üçün hüqqazidd davranış göstərən insanlar və buna maraq göstərən kütlədə az deyil.

ABŞ-ın Viskonsi ştatında iki 12 yaşlı qız-Morgan Geyser və Anissa Weier 2014-cü ildə həm yaşıd qız dostlarını meşəyə apararaq, on doqquz dəfə bıcaq zərbəsi ilə yaralamışlar. Zərərçəkmiş sağ qalmış lakin ağır yaralanmışdır.Bu cinayətin motivi isə internetdə məşhur olan uydurma "Slender Man" obrazı idi [15].

*Hüquqi və inzibati amillər*-Cəmiyyətin qanunvericlik sistemi və hüquqi nəzarət səviyyəsi cinayi davranışın yaranmasına təsir edən əsas amillərdəndir.Qanunların zəif tətbiqi və hüquqi boşluqlar cinayət törətmək üçün şərait yaradır.

Hüquqi nəzarətin zəif olması ictimai yerlərdə vandalizm və küçə döyüşləri kimi halları artırır.Cəmiyyətdə hüquq-mühafizə orqanları effektiv fəaliyyət göstərmədikdə insanlar hüquqazidd davranışlara meyl göstərir.

Məşhur Kolumbiyalı narkobaron Pablo Escobar 1980-1990-cı illərdə "Medellin Karteli" adlı ən güclü narkotik şəbəkəsini qurdu.Onun bu cinayət fəaliyyəti nəticəsində minlərlə insan həlak oldu. Həmin dövrdə dövlətin qanunvericilik sistemi zəif idi və dövlət qurumlarında korrupsiya halları geniş yayılmışdır.Escobar isə bu boşluğu fürsətə çevrmişdi [14].

Qeyd etmək lazımdır ki, şəxsiyyətin cinayi davranışa meyl etməsi və ya cinayətkarlıq fəaliyyəti ilə məşğul olması yalnız bir amillə deyil,bir neçə amilin təsiri nəticəsində ola bilər.Cinayi davranışa təsir edən sosial mühit amilləri bir-biri ilə sıx bağlıdır,çox zaman bu amillər eyni bir cinayət hadisəsində paralel şəkildə özünü göstərir.

**Nəticə**

Nəticə etibarilə,cinayətkar şəxsiyyətin o cümlədən,cinayi davranışın formalaşmasında sosial mühtin rolu danılmazdır.Cinayətkar davranışın kökləri yalnız daxili amillərdə deyil,sosial mühitin təsirlərində də axtarılmalıdır.Cinayətkar davranışın genezisini başa düşmək üçün sosial mühit amillərini nəzərə almalıyıq.Sosial mühitdə yaranan mənfi təsirlər insanı cinayətə yönəldə bilər.Ailə institutunun zəif olması,yanlış dost və məktəb çevrəsi cinayətkar davranış üçün zəmin yaradır.Buradan belə nəticəyə gəlmək olar ki, cinayətkarlıqla mübarizə üçün yalnız hüquqi tədbirlər kifayət etmir.Həmçinin sağlam sosial mühitin təmin edilməsi şərtdir.Cinayətkarlığın qarşını almaq məqsədilə keçirilən tədbirlərə sosial mühitin sağlamlaşdırılması və sosial interqrasiyanın gücləndirilməsi addımlarıda daxil edilməli və bu sahədə geniş miqyaslı tədbirlər görülməlidir.

## ƏDƏBİYYAT SİYAHISI

1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi

2. Bayramov Ə.S.,Əliyev B.H Hüquq Psixologiyası

3. Bayramov Ə.S., Əlizadə Ə.Ə Psixologiya

4. Bayramov Ə.S., Əlizadə Ə.Ə Sosial Psixologiya

5 .Əliyev B.H., Səməndərova A.F. Hüquq psixologiyasının tədqiqat metodları. Bakı:Təhsil, 2008, 156 s

6. Qurbanova, A.(2012). Krimonologiya. Bakı: Hüquq ədəbiyyatı

7. Səməndərov F.Y. Cinayət hüququ. Ümumi hissə., s.226

6. Leontyev, A. N. (1977). ***Fəaliyyət və şüur***. Moskva: İctimai Elmlər Nəşriyyatı.

7. Lomov, B. F. (1984). ***Şəxsiyyətin sosial psixologiyası***. Moskva: İctimai Elmlər Nəşriyyatı.

8. Platonov, K. K. (1991). ***Sosial psixologiya***. Moskva: İctimai Elmlər Nəşriyyatı.
9. Rubinstein, S. L. (1996). ***Şəxsiyyət və fəaliyyətin psixologiyası***. Bakı: Maarif.
10. Круглова Т.В. Ревность как мотив совершения преступления и ее уголовно-правовое и криминологическое значение. Дисс.... канд. юр. наук. М., 2003s.21
11. Al Capone's Revenge: An Essay on the Political Economy of Pretextual Prosecution(Daniel C. Richman, Columbia Law School),2005
12. Children and Youth Services Review,The social ecology of the Columbine High School shootings
13. Journal of Community Psychology,What makes young people get involved with street gangs in London? A study of the perceived risk factors
14.J ournal of İllicit Economies and Development,Colombia, the Drug Wars and the Politics of Drug Policy Displacement – from La Violencia to UNGASS 2016 (John Collins
Karen Torres Alarcón)
15. Slender Man on Trial: Has Media Taken the Minds of the Young?,Criminal Law Bulletin, Vol. 52 No. 3
16. Biography.com Ted Bundy
17. People.com Revisiting Ted Bundy’s Horrifying Murder Spree: How Many Lives Did the Serial Killer Claim — and Why Do Experts Estimate the Real Count to Be Even Higher?

**Mushvig MUSTAFAYEV**
Western Caspian University,
Associate Professor at the Department of Psychology and Social Work
E-mail: mustafayev@mail.ru

**Nihad AKHUNDOV**
Western Caspian University,
Master’s Student at the Department of Psychology and Social Work
E-mail: nihadakhundov13@gmail.com

## THE ROLE OF SOCIAL ENVIRONMENT IN THE FORMATION OF CRIMINAL BEHAVIOR

**Summary**

The article is devoted to the role of the social environment in the formation of criminal behavior. The factor of social environment plays a significant role in personality development, including the formation of a criminal personality. An individual who does not develop within a healthy social environment tends to display behaviors inclined toward criminality, eventually transforming into a criminal personality. In the psychological analysis of any criminal act, it is essential to consider the social environmental factors that influence the offender. This contributes both to constructing the offender’s psychological profile and to understanding the psychological mechanisms underlying criminal behavior. The article elaborates on these issues comprehensively and in detail. In addition, the existing literature is systematized and analyzed.

**Keywords:** Social environment, criminal, criminal behavior, illegal actions, psychological

**Мюшвиг МУСТАФАЕВ**
Западно-Каспийский университет,
доцент кафедры психологии и социальной работы
Эл. почта: mustafayev@mail.ru

**Нихад АХУНДОВ**
Западно-Каспийский университет,
магистрант кафедры психологии и социальной работы
E-mail: nihadakhundov13@gmail.com

## РОЛЬ СОЦИАЛЬНОЙ СРЕДЫ В ФОРМИРОВАНИИ ПРЕСТУПНОГО ПОВЕДЕНИЯ

**Резюме:**

Статья посвящена роли социальной среды в формировании преступного поведения. Фактор социальной среды играет важную роль в развитии личности, в том числе в становлении преступной личности. Индивид, не развивающийся в здоровой социальной среде, склонен к поведению, ведущему к криминализации, в результате чего формируется преступная личность. При психологическом анализе любого преступного деяния необходимо учитывать социально-средовые факторы, оказывающие влияние на преступника. Это способствует как созданию его психологического профиля, так и изучению психологических механизмов преступного поведения. В статье данные вопросы рассматриваются всесторонне и подробно. Кроме того, проведена систематизация и анализ существующей литературы.

**Ключевые слова:** социальная среда, преступник, преступное поведение, противоправность, психологический

**Daxil olub: 04.07.2025**